# Ən böyük arzusu hərbi orkestrdə çalışmaq idi

**"Özümə şəhidlik arzulayırdım, oğluma qismət oldu", - deyib üzünü yana çevirsə də, həyəcanını gizlədə bilmir Rüfət müəllim. Şəhid atasının qürurlu, amma hüznlü sözləri məni də kövrəldir. 2020-ci ilin 8 oktyabrından xeyli keçsə də, Hacıyevlər ailəsinin göz yaşları quruma-yıb, yəqin heç vaxt da qurumayacaq.**



Sulutəpə qəsəbəsində axtardığım ünvanı tapmaq elə də çətinlik yaratmadı. Baxmayaraq ki, bayraqlı-şəkilli-əklilli neçə şəhid qapısının yanından keçib getməli oldum. Nəhayət, adını daşıyan bulaq və böyük xatirə lövhəsi şəhid Toğrulun yaşadığı küçəyə gəlib çatdığımı təsdiqlədi.

Atası Rüfət Hacıyev I Qarabağ müharibəsi qazisidir. Polkovnik Şair Ramaldanovun briqadasında kəşfiyyat bölüyündə xidmət edib. Dəfələrlə düşmən arxasında uğurlu əməliyyatlar keçiriblər. 1991-1995-ci illərdə orduda olub, Qorqan əməliyyatında fəallıq göstərib, 1993-cü ildə Horadiz əməliyyatında iştirak edib.

Toğrul 1997-ci il fevralın 17-də Füzuli işğal altında, əhalisi də məcburi köçkün statusunda olduğundan Beyləqan rayonunda dünyaya göz açıb. Sonralar Hacıyevlər ailəsi daimi yaşayış və iş yeri kimi paytaxtı seçdiyindən 2003-cü ildə Zəngilan rayon 18 saylı məktəbin (Bakıxanov qəsəbəsində) I sinfinə gedib. 2005-ci ildən həm də L.M.Rastropoviç adına 21 saylı musiqi məktəbində təhsil almağa başlayıb. 2009-cu ildən orta təhsilini Binəqədi rayonu Sulutəpə qəsəbəsi 313 saylı tam orta məktəbdə davam etdirib.

Şəhidimizin musiqiyə, xüsusən tara həvəsi, məhəbbəti barədə anası İlhamə Sultanova danışır: "Onu ilk dəfə musiqi məktəbinə mən aparmışam. Fərhad müəllim, tələbələri elə gözəl "Qarabağ şikəstəsi" çalırdılar ki... Dedim, musiqiçi kimi sizi qane etməsə də, "Qarabağ şikəstəsi"ni öyrədin. Yoxladı, qat-qat yaxşı alınacağına təminat verdi. 2014-cü ildə 313 saylı tam orta məktəbdən məzun oldu, heç hazırlaşmadan gedib imtahan verdi, 400 bal toplayaraq Milli Konservatoriyanın tələbəsi adını qazandı".

2020-ci ildə ali təhsilin magistr pilləsini bitirərək apreldə Vətən qarşısında borcunu ödəməyə gedir. Həqiqi hərbi xidmətə Qusar rayonunda başlayır. Müharibə başlayan gündən - 27 sentyabrdan döyüş bölgəsinə yollanır. Toğrul haqq savaşında göstərdiyi cəsarətə görə döyüş yoldaşları arasında "Canavar" ləqəbilə tanınır. Söhbəti atası davam etdirir: "Əvvəl ön cəbhədə olmasını gizlədirdi, deyirdi Qusardayıq. Sonra həqiqəti öyrəndik. Əlimiz heç yana çatmırdı, ancaq öz təcrübəmdən bəhrələnib bəzi məsləhətlər verə bilirdim. Yaralanmasına 2 gün qalmışa qədər telefonla danışırdıq, elə bir ruh yüksəkliyi vardı ki, sanki heç müharibədə deyildi. Noyabrın 9-da Füzulidən bir həkim zəng vurdu. Dedi yaralanıb, hospitaldadır. Amma cərrahiyyə əməliyyatından çıxmayıb".

Toğrulun otağına baxıram - sevimli tarından tutmuş, geyimi, telefonu, afişaları, təltifləri - hamısı buradadır. Kameranın yaddaşından bir süjet də göstərirlər, şəhidimizin bəstəkarlıq istedadı da varmış. Hərbi hissədə komandiri mayor Mahir Hüseynovun "Gəncəm" şeirinə mahnı bəstələyibmiş. Fikri-zikri sənətdə idi, bir dəfə konsert zamanı tarın simi qırılıb, amma heç hiss elətdirməyib. Hərbi orkestrdə işləmək istəyirdi, orada tar olmadığından nəfəsli alətlərdə ifa etməyi öyrənirdi.

Xalq artisti Elçin Həşimov: "O özü mənim sinfimi seçmişdi, ifasını dinlədim, xoşuma gəldi, amma hələ çox işləməli olacağımızı söylədim. Dedi ki, müəllim, bütün çətinliklərə hazıram, təki sənətdə qaranlıq bir şey qalmasın. Vədinə əməl elədi də, xeyli çalışdı, bakalavr, magistr pillələrində dərs zamanı, imtahanlarda, tədbirlərdə ona əminliyimiz artdı, xarici ölkələrdə, beynəlxalq festivallarda tarımızı layiqincə təmsil elədi, başımızı ucaltdı... "Zabul-segah"ın gözəl ifaçısı idi. Sakit danışığı, peşəkarlığı, mədəniyyəti, intellekti sayəsində hamının hörmətini qazanmışdı. Çox təəssüf, onun simasında gözəl, mükəmməl bir musiqiçimizi itirdik".

Toğrul Rüfət oğlu Hacıyev Vətən müharibəsinin 13-cü günü - oktyabrın 8-də ata-baba yurdunda - Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin alınmasına görə" medalları ilə təltif olundu.

***Qurban MƏMMƏDOV***

Azərbaycan.- 2024.- 22 fevral, № 40.- S.11.